AZƏRBAYCAN

23 dekabr 2023-cü il 

7 FEVRAL AZƏRBAYCANDA NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

# İlham Əliyevə etimad sonsuzdur

**Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq bütün ölkə ərazisində keçiriləcək prezident seçkilərinə iki aydan az vaxt qalır. Bir sıra siyasi partiyalar, eləcə də hakim Yeni Azərbaycan Partiyası öz namizədini irəli sürüb. Prezident İlham Əliyev isə təkcə hakim partiyanın deyil, bütün Azərbaycan xalqının və dünya azərbaycanlılarının vahid namizədidir. Fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri xalqın İlham Əliyevə olan etimadının növbəti sübutu olacaq.**

Bu mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Rüfət Quliyev deyib ki, İlham Əliyevin prezidentliyə namizəd olması xalqın istəyidir: "Ona görə ki, artıq 20 ildən çoxdur ki, Azərbaycanın bütün uğurları İlham Əliyev şəxsiyyəti ilə bağlıdır. Prezident İlham Əliyev ölkəmizdə iqtisadi dayanıqlılığı təmin etdi, regionun ən güclü ordusunu qurdu, vətəndaşların sosial rifah halını hər ötən il daha da yaxşılaşdırdı və ən əsası Qarabağı və Şərqi Zəngəzuru azadlığına qovuşdurdu, suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdi. Azərbaycan xalqı bu qələbələrə məhz Prezidentin uğurlu hərbi-siyasi gedişləri hesabına nail oldu. Ona görə də xalqın Prezidenti olmaq cənab İlham Əliyevin halal haqqıdır. Bu, təkcə Azərbaycanda yaşayan 10 milyonluq əhalinin deyil, dünya azərbaycanlılarının təbii istəyidir".

Deputat vurğulayıb ki, İlham Əliyev siyasəti möhkəm təməl üzərində dayanır: "Hər kəsə məlumdur ki, bu siyasətin alternativi yoxdur. Prezident İlham Əliyev istər İkinci Qarabağ müharibəsində, istərsə də 23 saatlıq antiterror tədbirləri zamanı bunu bir daha sübut edib. Bu qələbələrdən sonra regionda yeni tarixi reallıq yaranıb. Ərazi bütövlüyümüzün və suverenliyimizin 100 faiz təmin edilməsi reallığı imkan verir ki, prezident seçkiləri müstəqillik tariximizdə ilk dəfə bütün Azərbaycan ərazisində keçirilsin.



Rüfət Quliyev söyləyib ki, dünya dövlətlərində növbədənkənar prezident seçkilərinin keçirilməsi təcrübəsi var. Xüsusilə bu il həyata keçirilən antiterror tədbirləri nəticəsində regionda yaranan yeni reallıq ölkəmizdə də prezident seçkilərinin daha tez keçirilməsini zəruri edib.

Deputat vurğulayıb ki, bu gün bütün Azərbaycan xalqı ölkəmizin nüfuzunu qlobal aləmdə yüksəldən, bu gününü və sabahını işıqlandıran cənab İlham Əliyevin yanındadır. Zəfər seçkisində bizə zəfər sevincini yaşadan İlham Əliyevi dəstəkləmək xalqımızın ürəyindən gələn istəkdir. Bu seçkilər də əvvəlkilər kimi Azərbaycanın başını uca, alnını açıq edəcək. Çünki Müzəffər Prezident İlham Əliyev xalqın tək seçimidir. Bunu əminliklə demək olar: xalqın seçimi çoxdan bəllidir.

*N.QAFARZADƏ,*
*"Azərbaycan"*